| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 23.06.1997 |
| QEYDİYYAT NÖMRƏSİ | 604 |
| ADI | “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-1997, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 461) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 110.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

öz səlahiyyəti daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci bəndində və 19-cu maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın, habelə 6-cı maddəsinin 3-cü bəndində, 25-ci maddəsinin 6-cı bəndində, *41-ci maddəsinin 12-ci bəndində və 41-1-ci maddəsinin 1-ci hissəsində* nəzərdə tutulmuş “Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[1]

həmin qanunun 2-ci maddəsinin 5-ci bəndində, 5-ci maddəsinin 2-ci bəndinin “b” yarımbəndində, 7-ci maddəsinin “c” bəndində, 13-cü maddəsinin 1-ci bəndində, 14-cü maddəsinin birinci hissəsində, 15-ci maddəsinin 1-ci bəndində, 16-cı maddəsinin 3-cü bəndində, 19-cu maddəsinin 2-ci bəndində və 50-ci maddəsinin 6-cı bəndində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini *Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi* həyata keçirir; [2]

*həmin Qanunun 10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.*[3]

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

Bakı şəhəri, 23 iyun 1997-ci il
604

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**)
2. 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
3. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**)
4. 5 sentyabr 2018-ci il tarixli **260** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 6 sentyabr 2018-ci il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1823**)
5. 29 aprel 2019-cu il tarixli **659** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 30 aprel 2019-cu il, 93, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 657**)
6. 28 dekabr 2022-ci il tarixli nömrəli **1921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il, “Xalq” qəzeti, 29 dekabr 2022-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1431**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 5 sentyabr 2018-ci il tarixli **260** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 6 sentyabr 2018-ci il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1823**) ilə 2-ci hissənin ikinci abzasında “**və 41-ci maddəsinin 12-ci bəndində**” sözləri “**, 41-ci maddəsinin 12-ci bəndində və 41-1-ci maddəsinin 1-ci hissəsində** ” sözləri ilə əvəz edilmişdir.

[2] 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**) ilə 2-ci bəndin üçüncü abzasında "**Dövlət Əmlak Komitəsi**" sözləri "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə 2-ci bəndinin üçüncü abzasında “**İqtisadi İnkişaf Nazirliyi**” sözləri “**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**” sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**) ilə 2-ci bəndinin üçüncü abzasında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

28 dekabr 2022-ci il tarixli nömrəli **1921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 dekabr 2022-ci il, "Xalq" qəzeti, 29 dekabr 2022-ci il, 286 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1431)** ilə 2-ci hissənin üçüncü abzasında "**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 29 aprel 2019-cu il tarixli **659** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 30 aprel 2019-cu il, 93 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 657)** ilə 2-ci hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda dördüncü abzas əlavə edilmişdir.